

# POLİS

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

www.pq.mia.gov.az

polisazerbaycan

12 fevral 2026-cı il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 6 (3769)


# Tərəfdaşlıq Xartiyası



## Azərbaycan dünyanın supergücü ilə strateji tərəfdaşdır

***Prezident İlham Əliyev: “Amerika Birləşmiş Ştatları ilə strateji tərəfdaş olmaq böyük şərəfdir”.***

***Vitse-prezident Ceyms Devid Vens: “Gələcəkdə bir vaxtlar yalnız mübarizə və münaqişə olan yerdə əmin-amanlıq yaranacaq. Bu, Prezident Əliyevin liderliyinin və rəhbərliyinin bariz nümunəsidir”.***

Fevralın 10-da Bakıda Azərbaycan Prezidenti İlham Əliyevin Amerika Birləşmiş Ştatlarının vitse-prezidenti Ceyms Devid Vens ilə görüşü, eləcə də “Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında Strateji Tərəfdaşlıq Xartiyası”nın imzalanması ilə bağlı yayılan rəsmi xəbərlər iki ölkə münasibətlərində yeni mərhələnin başlandığını göstərdi.

Həmin gün keçirilən məhdud və geniş tərkibli görüşlər, həmçinin mətbuata verilən bəyanatlar Azərbaycan–ABŞ əməkdaşlığının daha da dərinləşdiyini nümayiş etdirdi.

Görüş zamanı nümayəndə heyətini salamlayan Prezident İlham Əliyev münasibətlərdə son aylarda müşahidə olunan dinamikaya diqqət çəkərək qeyd edib ki, son altı ay ərzində keçirilən görüşlər və aparılan müzakirələr tərəfdaşlığı gücləndirib: “Biz ölkələrimiz arasında münasibətlərə, xüsusilə son altı ayda baş verənlərə yüksək dəyər veririk. Bu müddət bizim tərəfdaşlığımız üçün tamamilə möhtəşəm olmuşdur”. Prezident həmçinin vurğulayıb ki, imzalanan Strateji Tərəfdaşlıq Xartiyası iki ölkə arasında əlaqələri daha yüksək səviyyəyə qaldıracaq.

Dövlət başçısı mətbuata bəyanatında sənədin əhəmiyyətinə xüsusi diqqət çəkib: “Bizim üçün dünyanın ən qüdrətli ölkəsi – Amerika Birləşmiş Ştatları ilə strateji tərəfdaş olmaq böyük şərəfdir”. Təhlükəsizlik, enerji, nəqliyyat və yüksək texnologiyalar sahəsində əməkdaşlığın genişlənəcəyini deyən Prezident TRIPP nəqliyyat layihəsinin regionda sülh və əməkdaşlığa töhfə verəcəyini qeyd edərək bildirib: “Bu gün Birləşmiş Ştatlarla Azərbaycan arasında münasibətlər tamamilə yeni mərhələyə qədəm qoyur”.

ABŞ-ın vitse-prezidenti də öz növbəsində çıxışında Azərbaycanla uzunmüddətli tərəfdaşlığın əhəmiyyətini vurğulayıb: “Düşünürəm ki, bu, ABŞ üçün çox uzunmüddətli, çox mühüm tərəfdaşlıq və dostluqdur”. Vitse-prezident Azərbaycanın beynəlxalq təhlükəsizlik sahəsində rolunu yüksək qiymətləndirərək, terrorizmə qarşı mübarizədə göstərilən dəstəyin mühüm əhəmiyyət daşıdığını bildirib.

Ceyms Devid Vens, həmçinin iki ölkə arasında münasibətlərin gələcək inkişaf perspektivlərinə toxunaraq ABŞ ilə Azərbaycan arasında tərəfdaşlığın regionda daha möhkəm sülhə və əmin-amanlığa aparacağını deyib. Həmçinin iqtisadi əməkdaşlığın genişlənməsinin, ticarət əlaqələrinin və ortaq layihələrin artmasının regionda sabitliyə xidmət edəcəyini vurğulayıb.

Mütəxəssislər hesab edir ki, Bakıda keçirilən bu görüş və imzalanan sənəd Azərbaycan–ABŞ münasibətlərində keyfiyyətcə yeni mərhələnin başlanğıcı kimi qiymətləndirilə bilər. Strateji tərəfdaşlıq səviyyəsinə yüksələn münasibətlər həm təhlükəsizlik sahəsində əməkdaşlığın dərinləşməsinə, həm də iqtisadi əlaqələrin genişlənməsinə şərait yaradır.

Enerji, logistika, yüksək texnologiyalar sahəsində birgə layihələrin artması Azərbaycanın regional mərkəz kimi rolunu daha da gücləndirəcək və dünyada da rolunu artıracaq.

# Sosial təminat güclənir

## Bunu Prezidentin siyasəti təsdiqləyir

**Azərbaycanda əhalinin sosial rifahının gücləndirilməsi dövlət siyasətinin əsas prioritetlərindən biri kimi ardıcıl davam edir. Xüsusilə sosial müdafiə sisteminin möhkəmləndirilməsi, həssas əhali qruplarının gəlirlərinin qorunması və sosial ədalətin təmin olunması istiqamətində mühüm qərarlar qəbul olunur.**

Dövlət başçısının pensiyaların indeksləşdirilməsi ilə bağlı imzaladığı sənəd sosial islahatların sistemli xarakter daşıdığını və dövlətin sosial öhdəliklərinə sadiqliyini bir daha nümayiş etdirir.

İndeksləşdirmə yaşa, əlilliyə və ailə başçısını itirməyə görə təyin olunan bütün növ əmək pensiyalarını əhatə edir. Bu yanaşma qulluq stajına görə əlavə pensiya alanları da əhatə edir. Yəni hərbi qulluqçular, hüquq-mühafizə orqanlarının əməkdaşları və dövlət qulluqçuları da artımdan yararlanacaq. Ölkədə qiymət artımlarının müşahidə olunduğu bir şəraitdə pensiyaların artırılması təqaüdçülərin alıcılıq qabiliyyətinin qorunmasına, onların sosial rifahının dəstəklənməsinə xidmət edir. Həyata keçirilən bu tədbirlər bir tərəfdən mövcud təqaüdçülərin sosial vəziyyətinin yaxşılaşdırılmasına xidmət edirsə, digər tərəfdən gələcək nəsillər üçün daha etibarlı və şəffaf pensiya təminatının formalaşdırılmasına imkan yaradır.

Əslində, genişmiqyaslı sosial islahatlar 8 il əvvəl – 2018-ci ildə İlham Əliyevin yenidən prezident seçilməsindən sonra başlayıb. Andiçmə mərasimində cənab Prezidentin dediyi “hamımızın amalı ondan ibarətdir ki, ölkəmiz daha da güclənsin, daha da qüdrətli dövlətə çevrilsin, Azərbaycan vətəndaşları daha da yaxşı yaşasınlar” sözləri ötən illərdə sosial islahatlarla bağlı verdiyi qanun və sərəncamların ana xəttini təşkil etməklə yanaşı, həm də gələcək layihələrin anonsu idi.

Bütün bunlar onu göstərir ki, Azərbaycanda sosial siyasət formal xarakter daşımır, real ehtiyaclara əsaslanan və insan amilini mərkəzə qoyan dövlət idarəçiliyi modeli tətbiq olunur. Əhalinin sosial müdafiəsinin gücləndirilməsi, aztəminatlı təbəqələrin rifahının qorunması və sosial ədalətin təmin edilməsi ölkənin uzunmüddətli inkişaf strategiyasının ayrılmaz tərkib hissəsidir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən ardıcıl sosial islahatlar vətəndaş-dövlət münasibətlərinin də etimadın möhkəmlənməsinə, cəmiyyətdə sosial sabitliyin qorunmasına xidmət edir.

# Ölkəmiz tolerantlıq nümunəsidir

## Müxtəlif xalqların nümayəndələrinə qayğı var

Prezident İlham Əliyev fevralın 9-da ABŞ-ın Əsas Amerika Yəhudi Təşkilatlarının Prezidentləri Konfransının sədri Betsi Berns Kornun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

Görüşdə Azərbaycanda tarixən tolerant mühitin hökm sürdüyü qeyd edilib, digər xalqların nümayəndələrinə olduğu kimi yəhudilərə də göstərilən dövlət qayğısına toxunulub.

Söhbət zamanı Azərbaycan-ABŞ əlaqələrinin inkişafından məmnunluq bildirilib, Əsas Amerika Yəhudi Təşkilatlarının Prezidentləri Konfransı ilə ölkəmiz arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi qeyd edilib, onların Azərbaycan-ABŞ və Azərbaycan-İsrail ikitərəfli münasibətlərinin genişlənməsində rolu vurğulanıb.

# Qarşılıqlı etimad dərinləşir

## Qərbin nəhəng şirkətləri Azərbaycana gəlir

Prezident İlham Əliyev fevralın 9-da ABŞ Ticarət Palatasının beynəlxalq üzvlərlə əlaqələr, Yaxın Şərq və Türkiyə üzrə baş vitse-prezidenti Kuş Çoksinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Nümayəndə heyətində Qərbin nəhəng şirkət rəhbərləri təmsil olunub.

Görüş zamanı Prezident İlham Əliyev bildirib ki, ölkəmizdə çox müsbət biznes mühiti mövcuddur: “Biz nəhəng sərmayələri cəlb etmişik. Əgər ölkənin ölçüsünə və əhalinin sayına baxsanız, son iki onillik ərzində 350 milyardlıq sərmayə həqiqətən çox böyük rəqəmdir. Hamımızın bildiyi kimi, sərmayələr istənilən ölkənin inkişafında əsas aparıcı qüvvədir. Biz və qanunvericiliyimiz hər zaman xarici sərmayələrə açıq olub”.

# Azərbaycan dəstək göstərməyə hazırdır

## Prezident nümayəndə heyətini qəbul edib

“Biz istəyirik ki, bütün dünyada sülh olsun, qan tökülməsin, müharibələr olmasın”.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 6-da İran İslam Respublikasının müdafiə və silahlı qüvvələrə dəstək naziri Əziz Nəsirzadənin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşündə belə deyib.

Hazırda dünyanın bir çox yerində müharibə və münaqişələrin davam etdiyini vurğulayan dövlətimizin başçısı Azərbaycanın təşəbbüsü ilə Cənubi Qafqazda artıq sülhün bərqərar olduğunu deyib, bunun həm Azərbaycan, həm də Ermənistanla həmsərhəd olan İran üçün böyük əhəmiyyət daşıdığına əminliyini bildirib.

Azərbaycan Prezidenti onu da qeyd edib ki, İran Prezidenti ilə telefon danışığı zamanı qeyd etdiyi kimi Azərbaycan bölgədə yaranmış vəziyyətdən narahatdır və bu gərginliyin aradan qaldırılması üçün öz dəstəyini göstərməyə hazırdır.

Söhbət zamanı əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi də aparılıb.


Təlimlərdə möhkəmlənən peşəkarlıq.2
İlk təəssüratın ünvanı.........................2
Qanunun verdiyi güc..........................3
DİN müsabiqə elan edir......................4

# Respublika Xəbərləri

### Pensiyalar artırıldı

Pensiyalar indeksləşdirilərək 9,3 faiz artırılıb. Təqaüdçülər artıq fevral ayının pensiyasını yeni artımla, habelə yanvar ayının pensiyasına edilmiş artım məbləği ilə birgə alacaqlar. Artım bütün təqaüdçülərə, o cümlədən təqaüdçü olan hərbi qulluqçular, hüquq-mühafizə orqanları əməkdaşlarına, bütövlükdə 1,1 milyon təqaüdçüyə şamil olunur.

### Sahibkarlara daha bir il güzəşt

Prezident İlham Əliyev sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılmasının bir il müddətinə uzadılması ilə bağlı qanuna dəyişikliyi təsdiqləyib. Qanuna dəyişiklik 2026-cı il yanvarın 1-dən tətbiq edilib.

### Amnistiyanın icrası davam etdirilir

Amnistiya aktı 15 min 119 şəxs barəsində tətbiq olunub. Ədliyyə Nazirliyindən verilən məlumata görə, amnistiya tətbiq olunan şəxslərin 5148-i müəyyən müddətə azadlıqdan məhrumetmə, 8914-ü isə azadlıqdan məhrumetmə ilə əlaqədar olmayan cəzalardan azad edilib. Azadlıqdan məhrumetmə cəzasına məhkum edilmiş 1045 nəfərin cəzası 6 ay azaldılıb, 12 nəfər isə cinayət məsuliyyətindən azad edilib.

### Orta aylıq pensiya da artıb

2018-2025-ci illərdə orta aylıq pensiya 208 manatdan 543 manata, yaşa görə orta aylıq pensiya 234 manatdan 578 manata çatıb. Artıq yeni artımla orta aylıq pensiya və yaşa görə orta aylıq pensiya müvafiq olaraq 593 manata və 632 manata çatır. Bu da 2018-ci ilə nisbətən orta aylıq pensiyada 2,8 dəfə, yaşa görə orta aylıq pensiyada 2,7 dəfə artım deməkdir.

### Kibercinayətkarlıqla bağlı yeni terminlər

Qanunvericiliyə kibercinayətkarlıqla bağlı yeni terminlərin əlavə edilməsi təklifi Milli Məclisdə birinci oxunuşda qəbul edilib. Qanunvericilikdəki "kompüter sistemi" ifadəsi "İKT sistemi", "kompüter məlumatları" isə "elektron verilənlər" terminləri ilə əvəz edilir. Eyni zamanda qanunvericiliyə "trafik verilənləri", "abunəçi məlumatları", "məzmun verilənləri" və "xidmət provayderi" kimi yeni hüquqi anlayışlar daxil edilir.

### Layihələr ardıcıl icra edilir

Azərbaycanın işğaldan azad edilmiş ərazilərində ötən il 385 layihə icra edilib. Qarabağ və Şərqi Zəngəzurda icra edilmiş layihələrin 56-sı nəqliyyat, 78-i su təsərrüfatı və meliorasiya, 19-u energetika, 7-si müdafiə və hüquq-mühafizə, 177-si sosial, 48-i isə digər layihələr olub.

### Zəngəzur dəhlizinə beynəlxalq maraq

Azərbaycanla Avropa İttifaqı arasında Zəngəzur dəhlizinin Trans-Avropa nəqliyyat şəbəkələrinə əlavə olunması ətrafında fikir mübadiləsi aparılıb. Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyevin sözlərinə görə, Orta Dəhlizin potensialı, eləcə də aviasiya, dəniz nəqliyyatı, süni intellekt və kibertəhlükəsizlik sahələrində əməkdaşlıq məsələləri müzakirə edilib.

### Qarabağa səfərlər

Son 4 ildə azad olunmuş ərazilərə müntəzəm avtobus reysləri ilə 186 min nəfər səfər edib. Fərdi minik avtomobilləri ilə səfər etmək üçün 3 286 646 nəfərə portal üzərindən icazə verilib. Onlardan 3 692 nəfəri xarici ölkə vətəndaşlarıdır. Təkcə bu ilin yanvar ayı ərzində 47 840 Azərbaycan vətəndaşına işğaldan azad olunmuş ərazilərə səfər etmək üçün icazə verilib.

### Turist axını təhlükəsizlik göstəricisidir

Ötən il Azərbaycana Avropa ölkələrindən 223 486 turist səfər edib. Bu, 2024-cü illə müqayisədə 4,3 faiz çoxdur. Şərqi Avropa ölkələrindən isə 111 040 turist gəlib. Bu da 1 il əvvələ nisbətən 3,4 faiz çoxdur. Şərqi Avropa ölkələri arasında ən çox turist Ukraynadan gəlib - 37 221 nəfər.

### Vətəndaşlar məhkəmələrə inanırlar

Son illər Azərbaycanda vətəndaşların məhkəmə hakimiyyətinə olan inamı artıb. Bu barədə Ali Məhkəmənin və Məhkəmə-Hüquq Şurasının sədri İnam Kərimov bildirib ki, müasir dövrdə güclü iqtisadiyyat yalnız sərmayə və təşəbbüskarlıqla deyil, eyni zamanda etibarlı, çevik və proqnozlaşdırıla bilən hüquq sistemi ilə formalaşır.

### Separatçılar "ömürlük" oldu

Bakı Hərbi Məhkəməsinin qərarı ilə Qarabağdakı keçmiş qondarma rejimin başçılarından Arayik Harutyunyana, "müdafiə naziri" Levon Mnatsakanyana, "parlamentin sədri" Davit İşxanyana, "xarici işlər naziri" David Babayana, Ermənistan silahlı qüvvələrinin general mayoru David Manukyana ömürlük həbs cəzası verilib.

# Təlimlərdə möhkəmlənən peşəkarlıq

## DİN-in DQ-nin xüsusi təyinatlı bölmələri hər an Vətənə və xalqa xidmət üçün hazırdır

**Daxili Qoşunlarda təlim prosesi peşəkarlığın əsas dayağıdır. Müasir çağırışlara uyğun keçirilən məşğələlər şəxsi heyətin operativ və taktiki hazırlığını artırır. Real şəraitə yaxın ssenarilər üzrə icra olunan tapşırıqlar çevik qərarvermə bacarığını formalaşdırır və inkişaf etdirir. Daimi təkmilləşmə isə xidmətin keyfiyyətini və qarşıya qoyulan vəzifələrin dəqiq icrasını təmin edir.**







Daxili İşlər Nazirliyinin Daxili Qoşunları Vətənin müdafiəsi naminə məsuliyyətli və şərəfli vəzifələri yerinə yetirərkən əsl qəhrəmanlıq salnaməsi yazıblar.

İllər keçdikcə Daxili Qoşunlar daha da təkmilləşib, şəxsi heyətin peşəkarlıq səviyyəsi yüksəlib, maddi-texniki imkanlar genişləndirilib, idarəetmə sistemi müasir tələblərə uyğun formalaşdırılıb. Bu inkişafın real nəticələri 44 günlük Vətən müharibəsi zamanı bütün aydınlığı ilə öz təsdiqini tapıb. Həmin günlərdə Daxili Qoşunların şəxsi heyəti misilsiz fədakarlıq, sarsılmaz iradə və yüksək döyüş ruhu nümayiş etdirib.

Xüsusi təyinatlı dəstələr düşmən mövqelərinin yarılmasında, silahlı qrupların zərərsizləşdirilməsində və strateji əhəmiyyət daşıyan ərazilərin nəzarətə götürülməsində müstəsna qəhrəmanlıq göstəriblər. Bir çox döyüş əməliyyatının uğurla başa çatması məhz onların çevikliyi, cəsarəti və dəqiq koordinasiyalı fəaliyyəti sayəsində mümkün olub. Daxili Qoşunların şəxsi heyəti Vətən müharibəsi zamanı 66 şəhid və 346 yaralı, antiterror tədbirlərində isə şəhidlik zirvəsinə ucalan 12 hərbi qulluqçu və 24 yaralı ilə Vətənə sədaqət andına sadiqliyini bir daha təsdiqləyib.

Xüsusi təyinatlıların peşəkarlığı sülh dövründə keçirilən müntəzəm və intensiv hazırlıq prosesində də aydın müşahidə olunur.

Hazırda icra olunan genişmiqyaslı təlim proqramları onların fiziki dözümlülüyünü, taktiki düşünmə qabiliyyətini və döyüş bacarıqlarını ən yüksək səviyyəyə çatdırır. Müasir texnologiyalarla praktiki tanışlıq, real şəraitə uyğunlaşdırılmış məşqlər və yüksək intizam mühiti daxili qoşunların xüsusi təyinatlılarını hərtərəfli peşəkar hərbçilər kimi yetişdirir.

Sistemli hazırlıq nəticəsində onlar istənilən mürəkkəb vəziyyətə hazır olan, təhlükəni öncədən qiymətləndirən və üzərlərinə düşən vəzifəni qətiyyətlə yerinə yetirən etibarlı qüvvəyə çevrilirlər. Möhkəm hazırlıq və yüksək mənəvi ruh bu bölmələri dövlətin və xalqın güvəndiyi, hər zaman arxalana biləcəyi sarsılmaz sipər kimi səciyyələndirir. Polislə birgə Böyük Qayıdışın təhlükəsizliyinin təmin edilməsində Daxili Qoşunların hərbçilərinin iştirakı vahid gücün iradəsini ortaya qoyur. Yurd-yuvasına qayıdan vətəndaşlarımızın əmin-amanlığı bu gücə əmanətdir.

İntizamlı, peşəkar və dəmir iradəyə malik şəxsi heyətdən sıralarında xidmət edən hər bir hərbi qulluqçu, polis əməkdaşı Vətənə sədaqəti, dövlətə bağlılığı və yüksək məsuliyyət hissi ilə seçilir. Daxili işlər orqanlarının qazandığı zəngin təcrübəsi, tətbiq etdiyi müasir hazırlıq metodları və nümayiş etdirdiyi taktiki təlimlər dünyanın bir çox xüsusi təyinatlı bölmələri üçün metodiki örnək və əyani vəsait hesab oluna bilər.

# İlk təəssüratın ünvanı

## Heydər Əliyev adına Beynəlxalq Hava Limanında polisin xidməti ölkə imicinə müsbət töhfələr verir

**Hava limanı hər bir ölkənin dünyaya açılan qapısıdır. Bu qapıdan keçən hər kəsin diqqətini ilk olaraq ölkəyə girişin rahatlığı, səliqə-sahmanı və təhlükəsizlik cəlb edir ki, bunların arasında ən əhəmiyyətlisi məhz sonuncusudur. Hava Nəqliyyatında Polis İdarəsinin peşəkar xidməti bu baxımdan beynəlxalq miqyasda da böyük əhəmiyyət daşıyır və ölkə haqqında müsbət imic formalaşdırır.**

Hər gün minlərlə insanın, onlarla uçuşun, saysız-hesabsız yüklərin və informasiya axınının bir nöqtədə cəmləşdiyi bu strateji məkanda təhlükəsizliyin təmin olunmasına yalnız qayda-qanunun qorunması kimi baxmaq, bu məsuliyyətli missiyaya əmək sərf edənlərin fəaliyyətinin miqyasını kiçiltmək olardı. Nəzərə almaq lazımdır ki, burada eyni zamanda dövlətin nüfuzu və beynəlxalq etimadı da qorunur. Bu etimadın əsas dayaqlarından biri məhz polis əməkdaşlarıdır.

Onların xidmətinin miqyasını aydın təsəvvür etmək üçün ötən il ərzində hava yolu ilə ölkəmizə gəlib-gedənlərin sayına baxmaq kifayətdir. Yola saldığımız ildə həm beynəlxalq, həm də yerli uçuşlar daxil olmaqla 30 min 920 reys həyata keçirilib. Bu reyslərlə 7 milyon 639 min 794 sərnişin daşınıb. Ölkə əhalisinin 70 faizindən çoxuna bərabər sayda sərnişinin gediş-gəlişi zamanı ictimai asayişin və təhlükəsizliyin qorunması böyük məsuliyyət, həmçinin cavabdehlik tələb edir. Ölkəyə ayaq basan sərnişinlərə ehtiyac yarandığı təqdirdə polis istiqamət göstərir, kömək edir və bununla da təhlükəsizliyin fasiləsiz təmin olunduğu barədə ümumi inam formalaşdırır. Bu səbəbdən polis əməkdaşları hava limanında yalnız asayişi qoruyan qüvvə kimi görünmür, eyni zamanda ölkədə hüquqi düzənin və sabitliyin keşiyində dayanan gücü təcəssüm etdirir.

Ölkəyə gəlib-gedənlərin yolu səmadan keçsə də, təhlükəsizlik təyyarənin eniş və qalxışı ilə başlayır. Yəni obrazlı desək, polislər səmadakıların yerdə keşiyini çəkirlər. Cinayətkarlıqla mübarizədə də Hava Nəqliyyatında Polis İdarəsi öz töhfəsini verir. Ötən il idarə tərəfindən 20 cinayət işi qeydə alınıb, 439 inzibati protokol tərtib edilib. Ümumilikdə 3003 axtarışda olan şəxs saxlanılıb. Onların arasında İnterpol xətti ilə beynəlxalq axtarışda olan 42, Müstəqil Dövlətlər Birliyinə daxil olan ölkələr üzrə axtarılan 21 nəfər də var.

Bu göstəricilər cinayətkarlıqla mübarizədə beynəlxalq əməkdaşlığın əyani sübutu və dövlətin imicinin qorunmasına xidmət edən mühüm missiyanın tərkib hissəsidir. Nazirliklər arasında beynəlxalq razılaşmaların dəqiq icrasıdır. Hava limanı ölkənin vitrini, ilk təəssüratı və keçiddir. Bu vitrində təhlükəsizliyin təmin olunması polis əməkdaşlarının məsuliyyətli və fədakar əməyinin bəhrəsidir.



# Qanunun verdiyi güc

## Harada və necə tətbiq etməli?

**Polisin fiziki gücdən istifadə etməsi ən tabii və qanunla təsbit olunmuş hüququdur. Polis əməkdaşı ictimai asayişi qoruyan, qanunun aliliyini təmin edən və vətəndaşların təhlükəsizliyinə cavabdeh olan şəxs kimi bəzən hüquqpozmanın qarşısını almaq, müqaviməti aradan qaldırmaq və ya şəxsi zərərsizləşdirmək üçün fiziki gücdən istifadə etmək məcburiyyətində qalır. Bu mənada fiziki qüvvənin tətbiqi xidmətin ayrılmaz hissəsidir.**

Polis əməkdaşının onun qanuni tələblərini icra etməyən şəxslərə qarşı fiziki qüvvə tətbiq etmək hüququ “Polis haqqında” Qanunun 26-cı maddəsində aydın təsbit olunub.

Bu hallar sırasında hazırlanan və ya törədilən cinayətin qarşısının alınması, inzibati xəta və ya cinayət törətmiş şəxsin tutulması, habelə hər hansı hüquqpozma zamanı güc tətbiq edilməsi kimi vəziyyətlər yer alır. Bu müddəalar göstərir ki, fiziki güc yalnız zərurət yarandıqda və konkret hüquqazidd hərəkətin qarşısını almaq məqsədilə tətbiq edilə bilər.

Buna görə fiziki qüvvədən istifadə edərkən polis əməkdaşı bir sıra mühüm tələblərə ciddi şəkildə riayət etməlidir. Həmin maddəyə görə fiziki qüvvənin tətbiqi yaranmış təhlükəyə mütənasib olmalı və yalnız tam zəruri hallarda həyata keçirilməlidir. Bu o deməkdir ki, tətbiq olunan gücün həcmi qarşıdakı təhlükənin səviyyəsinə uyğun seçilməli, artıq və əsassız güc istifadəsinə yol verilməməlidir. Hər bir halda bu tədbirin qanunauyğunluğu sonradan xidməti qaydada yoxlanılır və müvafiq rəy verilir.

Qanunun 27-ci maddəsi isə fiziki qüvvənin tətbiqi ilə bağlı polis əməkdaşının üzərinə düşən vəzifələri daha dəqiq müəyyən edir. Bu maddəyə əsasən polis əməkdaşı insana qarşı fiziki qüvvəni yalnız son zərurət yarandıqda və zəruri müdafiə vəziyyətində tətbiq etməlidir. Bundan əvvəl mövcud digər təsir imkanlarından istifadə edilməli, yalnız həmin vasitələr nəticə vermədikdə fiziki gücə müraciət olunmalıdır. Eyni zamanda tətbiq olunan tədbirin səviyyəsi törədilən hüquqpozmanın ağırlıq dərəcəsinə və onu törədənin şəxsiyyətinə uyğun olmalıdır. Fiziki qüvvə tətbiq edilərkən diqqət yetirilməli olan əsas məsələlərdən biri də insan həyatının və sağlamlığının qorunmasıdır. Polis əməkdaşı yalnız real təhlükənin qarşısını almaq məqsədilə hərəkət etməli, vəziyyətə uyğun davranmalı və mümkün zərərin minimuma endirilməsinə çalışmalıdır.

Fiziki qüvvənin tətbiqi nəticəsində zərər çəkmiş şəxslərə tibbi yardım göstərilməsinin təmin edilməsi də qanunun tələb etdiyi vacib vəzifələrdən biridir.

Sözügedən qanunun tələbinə görə, polis əməkdaşı fiziki qüvvə tətbiq etdiyi hər bir hal barədə dərhal xidmət etdiyi polis orqanına yazılı məlumat verməli, eyni zamanda bu barədə müəyyən edilmiş müddət ərzində müvafiq prokurora da rəsmi şəkildə məlumat təqdim etməlidir. Bu tələblər şəffaflığın təmin olunmasına, tətbiq edilən gücün qanun çərçivəsində olub-olmadığının araşdırılmasına və hüquqi nəzarətin həyata keçirilməsinə xidmət edir.

Beləliklə, polis əməkdaşının xidməti fəaliyyəti zamanı fiziki güc tətbiq etmək hüququ yalnız qanunda nəzərdə tutulan hallarda, zəruri həddə və müəyyən edilmiş qaydalara uyğun şəkildə həyata keçirildikdə legitim olur. Əks halda, bu səlahiyyətlərdən yersiz istifadə yolverilməzdir.

# Polis olmasaydı...

## Suda boğulan uşaq xilas edildi




Bəzən bir insanın taleyini saniyələr həll edir. Bəzən isə məhz həmin saniyələrdə göstərilən cəsarət, diqqət və peşəkarlıq bir canı yenidən həyata qaytarır. Saatlı rayonunun Qıraqlı kəndi ərazisində baş verən hadisə də belə məqamlardan biri kimi yadda qalıb. Polis əməkdaşları su kanalına düşmüş azyaşlını xilas edərək onun həyatını qoruyublar.

Hadisə barədə ilkin məlumat Saatlı Rayon Polis Şöbəsinin Növbətçi Hissəsinə daxil olduqdan sonra vəziyyətin ciddiliyi nəzərə alınaraq polis əməkdaşları vaxt itirmədən hərəkətə keçiblər.

Verilən məlumatda su kanalında bir nəfərin hərəkətsiz qaldığı, hətta həyatını itirdiyinin ehtimal olunduğu bildirilib.

Bu cür hallarda hər saniyənin həlledici olduğunu və operativliyin insan həyatını xilas edə biləcəyini yaxşı bilən əməkdaşlar dərhal hadisə yerinə yollanıblar.

Hadisə yerinə çatan Post Patrul Xidməti Bölüyünün komandir müavini polis kapitanı Seyran İsayev, polis kiçik serjantı Aqil Səfiyev, polis baş serjantı Şöhrət Məmmədov və YPX-nin inspektoru polis baş serjantı Babəkərim Səlimli vəziyyəti operativ qiymətləndirərək zəruri tədbirlər görüblər. Kanaldan çıxarılan azyaşlıya dərhal ilkin tibbi yardım göstərilib.

Daha sonra o, Post Patrul Xidmətinin xidməti avtomobili ilə xəstəxanaya çatdırılıb. Yol Patrul Xidmətinin əməkdaşları isə nəqliyyatın hərəkətini tənzimləyərək yolun açılmasını təmin ediblər. Bu da uşağın tibbi yardıma daha qısa müddətdə çatdırılmasına imkan verib. Həkimlərin göstərdiyi zəruri tibbi müdaxilələrdən sonra azyaşlının vəziyyətinin qənaətbəxş olduğu bildirilir. Qıraqlı kəndində baş verən bu hadisə bir daha göstərir ki, polis əməkdaşları təhlükə anını gözləyən yox, hər zaman vətəndaşın yanında olan qüvvədir. Saatlı RPŞ-nin əməkdaşları da həmin gün hər an baş verə biləcək hadisələrə hazır olmaq, riskli vəziyyətlərdə peşəkar davranmaq və insan həyatını xilas etmək üçün bütün imkanları səfərbər edə bilmək kimi bacarıqlarını nümayiş etdirməklə bunu bir daha sübut etdilər.

# Xidmətə ictimai dəstək...

## Aqressiya formalaşdıran internet resursları bloklanır

**Ölkəmizdə yeniyetmələr tərəfindən törədilən cinayət hadisələri hər nə qədər az olsa da, bir fakt belə ciddi narahatlıq üçün kifayət edir. Belə halların səbəbləri barədə fərqli baxışların olması təbiidir. Ancaq bütün mülahizələri bir araya gətirən ortaq məqam var. Bu da yetkinlik yaşına çatmayanların zorakılığa meyillənməsinin son illər sosial şəbəkələrin və rəqəmsal platformaların uşaqlar üzərində artan təsiri fonunda formalaşmasıdır.**

Təəssüf ki, müasir dövrdə uşaqların gündəlik həyatının mühüm hissəsi virtual məkanda keçir. Süni intellekt texnologiyalarının köməyi ilə hazırlanan və sosial şəbəkələrdə kütləvi şəkildə yayılan qısa videoçarxlar, müxtəlif platformalarda təqdim olunan qısa formatlı görüntülər uşaqların qarşısına hər gün yüzlərlə zorakılıq səhnəsi, silah nümayişi, kriminal həyat tərzi və aqressiv davranış nümunələri çıxarır. Bu məzmunların davamlı şəkildə təkrarlanması nəticəsində zorakılıq adi bir davranış kimi qəbul olunur, güc və silah isə bəzi hallarda qəhrəmanlıq obrazı ilə əlaqələndirilir. Psixoloji baxımdan formalaşmaqda olan yeniyetmələr üçün bu cür təsirlər xüsusilə həssas və təhlükəli nəticələr yarada bilir.

Mütəxəssislər hesab edirlər ki, dünyada yüzlərlə sosial şəbəkə və video paylaşım resursu fəaliyyət göstərir ki, onların böyük əksəriyyətində yaş filtrləri formal xarakter daşıyır. Pornoqrafik materiallar, silah nümayişləri, kriminal çağırışlar, qanunsuz oyunlar və zorakı davranış səhnələri real nəzarət mexanizmi olmadan sürətlə yayılır. Bu isə uşaqların psixoloji sağlamlığı üçün birbaşa risk deməkdir.

### Zərərli sosial şəbəkə hesabları...

Mövcud təhlükələr nəzərə alınaraq ölkəmizdə bu istiqamətdə ciddi qabaqlayıcı tədbirlər həyata keçirilir. İnternet resurslarının real vaxt rejimində monitorinqini aparan Daxili İşlər Nazirliyi tərəfindən təkcə ötən il ərzində 3 mindən artıq sayt, sosial şəbəkə hesabı və müxtəlif səhifə aşkar edilərək bloklanıb.

Bu zərərli resursların arasında dini radikalizmin və kriminal həyat tərzinin təbliğindən tutmuş, narkotik vasitələrin onlayn satışı və pornoqrafik materialların yayılmasına qədər müxtəlif riskli səhifələr olub.

Bununla yanaşı, polis əməkdaşları tərəfindən məktəblərdə yeniyetmələrin zərərli vərdişlərdən, aqressiv davranışlardan və kriminal təsirlərdən uzaq tutulmasına yönəlmiş maarifləndirici görüşlər mütəmadi şəkildə keçirilir.

Demək olar ki, ölkənin bütün bölgələrində, ən ucqar kəndlərdə belə məktəblilərlə görüşlər təşkil olunur. Bu görüşlər zamanı uşaqlara təhlükəli davranışların nəticələri izah edilir, sağlam həyat tərzi və düzgün seçimlərin əhəmiyyəti barədə söhbətlər aparılır.

### Yeniyetmələrin qlobal problemi

Bu problemlə üzləşən bir sıra ölkələr artıq qabaqlayıcı hüquqi tədbirlər də görməyə başlayıblar. Məsələn, bəzi dövlətlərdə sosial şəbəkələrdə qeydiyyat zamanı yaşın təsdiqlənməsi üçün daha ciddi mexanizmlər tətbiq olunur, platforma sahiblərinin məsuliyyəti artırılır və azyaşlıların təhlükəli məzmunla qarşılaşmasının qarşısını almağa yönəlmiş hüquqi öhdəliklər sərtləşdirilir. Bu təcrübələr göstərir ki, məsələ artıq təkcə ailə və ya məktəb səviyyəsində deyil, ümumi ictimai və hüquqi yanaşma tələb edən qlobal problemə çevrilib. Buna görə də tək-tək baş verən və istisna kimi görünən hadisələrə sadəcə bir fakt kimi yanaşmaq da doğru olmaz. Belə halların təhlükəli tendensiyaya çevrilməməsi üçün valideynlərin övladları üzərində nəzarəti artırması həyati önəm qazanıb artıq. Uşaqların hansı mühitdə böyüməsi, hansı təsirlərə məruz qalması gələcəyin ictimai təhlükəsizliyini, kriminal vəziyyətini müəyyən edən əsas amillərdən biridir. Ona görə sabahı düşünərək profilaktik tədbirləri artıran polisin qabaqlayıcı tədbirləri mütləq güclü ictimai dəstək görməlidir.

*R.Mehtiyev*

# İnsan alverçiləri pusqudadır

## Polis təhlükəsiz yolu göstərir




Daxili İşlər Nazirliyi insan alverinin qurbanı olmamaq üçün bir sıra vacib tövsiyələr verib. Qeyd olunub ki, xaricdə iş və ya təhsil ilə bağlı onlayn təklif aldıqda vətəndaşlar İnsan Alverinə qarşı Mübarizə Baş İdarəsinin “152” qaynar xəttinə müraciət edərək ödənişsiz və konfidensial məsləhət ala bilərlər. Eyni zamanda getmək istədikləri ölkədə fəaliyyət göstərən Azərbaycan Respublikasının diplomatik nümayəndəliyi və ya konsulluğu ilə əlaqə saxlayaraq təqdim olunan elanın həqiqiliyini dəqiqləşdirmələri tövsiyə olunur. Bundan başqa, iş və ya təhsil təklif edən şirkətin, eləcə də fiziki şəxsin müvafiq lisenziyasının olub-olmadığını yoxlamaq, bağlanacaq əmək müqaviləsinin surətini əvvəlcədən tələb etmək də vacibdir.

Ehtiyat tədbirləri ölkə hüdudlarını tərk etdikdən sonra da davam etdirilməlidir. Vətəndaşlar şəxsiyyətlərini təsdiq edən sənədləri heç kimə etibar etməməli, əmək fəaliyyəti zamanı mütləq rəsmi əmək müqaviləsi bağlamalıdırlar. Həmçinin onlara qarşı hər hansı qanunsuz hərəkət baş verərsə, dərhal yerli polis orqanlarına, eləcə də Azərbaycanın həmin ölkədəki diplomatik nümayəndəliyinə və ya konsulluğuna müraciət etmələri məsləhət görülür.

# Kiberpolis haker şəbəkəsini ifşa etdi

## Saxta internet səhifələri yaradırmışlar




Daxili İşlər Nazirliyi Kibercinayətkarlıqla Mübarizə Baş İdarəsi bank və bank olmayan bir neçə kredit təşkilatının rəsmi səhifələrinin oxşarını yaradaraq sosial mediada elanlar yerləşdirib aşağı faizli kreditlər təklif edən haker şəbəkəsinə qarşı əməliyyat keçirib. Əməliyyat-texniki tədbirlər zamanı bir qrup zərərçəkənin kart məlumatlarının ələ keçirilməsinin üsul və vasitələrində oxşar elementlər aşkar edilib. Tədbirlərin davamı olaraq 500-ə yaxın şəxsə qarşı qabaqcadan əlbir olaraq kiberdələduzluqlar edən 23 yaşlı Kənan Qasımov və 30 yaşlı İmam İşməmmədov saxlanılıblar.

Müəyyən edilib ki, bu şəxslərin yaratdıqları saxta səhifələrin həqiqi elektron ünvanlarla vizual bənzərliyinə aldanan zərərçəkənlər qarşılarına çıxan elanların real olduğuna inanıb və aşağı faizli kredit təkliflərinə aldanaraq müraciət ediblər.

Bundan sonra isə vətəndaşlar onlardan tələb olunan kart məlumatları, yəni CVV və OTP təhlükəsizlik kodlarını K.Qasımovla İ.İşməmmədova göndəriblər. Saxlanılan şəxslər ilkin ifadələrində indiyə qədər bu yolla 400.000 manata yaxın maddi vəsaiti ələ keçirdiklərini bildiriblər.

# Bir rayon, üç cinayət...

## Quldurluq, narkotik və oğurluqların üstü açılıb

Paytaxtın Nəsimi rayonunda polis əməkdaşlarının keçirdiyi əməliyyat tədbirləri nəticəsində quldurluq, narkotik vasitələrin qanunsuz dövriyyəsi və avtomobildən oğurluq halları ilə bağlı bir neçə nəfər saxlanılıb.

Belə ki, fevralın 6-da rayon ərazisində bir nəfər polisə müraciət edərək parkların birində tanışı tərəfindən fiziki zor tətbiq olunaraq 106 manat pulunun və mobil telefonunun talandığını bildirib. Nəsimi Rayon Polis İdarəsinin 22-ci Polis Şöbəsinin əməkdaşlarının həyata keçirdiyi tədbirlər nəticəsində əməli törətməkdə şübhəli bilinən, əvvəllər məhkum olunmuş 37 yaşlı Z.Tağıyev müəyyən olunaraq saxlanılıb. Araşdırma zamanı məlum olub ki, o, zərərçəkəndən əvvəlcə borc pul istəyib, imtina cavabı aldıqdan sonra isə hadisəni törədib.

Rayon ərazisində narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı keçirilən digər əməliyyat zamanı isə Nəsimi RPİ-nin 20-ci Polis Şöbəsinin əməkdaşları əvvəllər məhkum olunmuş 48 yaşlı Rizvan Fərəcovu saxlayıblar. Ondan 2 kiloqram 430 qram marixuana və 1 kiloqram 117 qram heroin olmaqla ümumilikdə 3 kiloqram 547 qram narkotik vasitə aşkarlanaraq götürülüb. Saxlanılan şəxs ifadəsində narkotikləri satış məqsədilə əldə etdiyini bildirib.

Məhkəmənin qərarı ilə onun barəsində həbs qətimkan tədbiri seçilib. Bundan başqa, rayon ərazisində avtomobillərdən oğurluq edən daha bir şəxs də saxlanılıb. Belə ki, naməlum şəxs “Mercedes” markalı avtomobilin şüşəsini sındıraraq salondakı 800 manatı talayıb. Polis əməkdaşlarının keçirdiyi tədbirlərlə əməli törətməkdə şübhəli bilinən, əvvəllər məhkum olunmuş 38 yaşlı A.Əhmədov müəyyən edilərək saxlanılıb. Araşdırmalarla onun elə həmin gün rayon ərazisində “Hyundai” markalı digər avtomobildən də eyni üsulla oğurluq etdiyi müəyyən olunub.

# Analitik düşüncə

## Təhlil bacarığı polisin gücünə əlavə fürsət yaradır

**Analitik düşüncə nədir və niyə vacibdir? Analitik düşüncə - məlumatları sistemli şəkildə toplamaq, təhlil etmək və əsaslandırılmış nəticəyə gəlmək bacarığıdır. Polis əməkdaşları üçün bu bacarıq həyati əhəmiyyət daşıyır, çünki verilən hər bir qərar həm şəxsi təhlükəsizlik, həm də əməliyyatın uğuru üçün kritikdir.**




Analitik düşüncə yalnız "hansı addımı atmalıyam?" sualına cavab vermək deyil, eyni zamanda hadisələri bütün aspektləri ilə görmək və səbəb-nəticə əlaqələrini anlamaq deməkdir. Məsələn, cinayət yerində yalnız barmaq izlərini görmək kifayət etmir. Bu izlərin mənşəyini, istiqamətini, fiziki şəraitlə əlaqəsini, digər detalları - ayaq izlərini, qapının açıq qalıb-qalmadığını, əşyaların yerdəyişməsini də nəzərə almaq lazımdır. Analitik düşüncə polis əməkdaşına bütün bu məlumatları əlaqələndirməyə və hadisəni rekonstruksiya etməyə imkan verir.

### Hadisələrin sistemli təhlili

Analitik düşüncənin vacib mərhələlərindən biri məlumatların sistemli təhlilidir. Hadisə yerində toplanan hər bir sübut - iz, obyekt, şahid ifadəsi, elektron məlumat ayrıca qiymətləndirilir və ardıcıllıqla birləşdirilir. Polis əməkdaşları təhlil zamanı belə suallar qoyur: "Bu iz necə yaranıb?", "Bu obyektin yerinin dəyişməsi nəyə işarə edir?", "Şahid ifadəsi sübutlarla uzlaşırmı?"

Sistemli təhlil alternativ ssenariləri də dəyərləndirməyə imkan verir. Analitik polis əməkdaşı tələsik nəticəyə gəlmir, hadisəni müxtəlif perspektivlərdən qiymətləndirir. Bu yanaşma yanlış qərarların qarşısını alır və işin uğurlu nəticəsini təmin edir.

### Kritik anlarda analitik bacarıq həlledicidir

Polis əməkdaşları tez-tez gözlənilməz situasiyalarla üzləşir. Belə məqamlarda analitik düşüncə həlledici rol oynayır. Məsələn, silahlı qarşıdurma zamanı instinktiv reaksiya vacib ola bilər, lakin vəziyyət analitik şəkildə qiymətləndirildikdə həm şəxsi, həm də komanda təhlükəsizliyi qorumaq daha mümkün olur. Analitik bacarıq hadisəni obyektiv dəyərləndirməyə, riskləri hesablamağa və optimal qərar qəbul etməyə kömək edir. Təlim və praktiki məşqlər bu bacarığı gücləndirir, instinkt və təcrübə ilə balans yaradır.

### Sübutların düzgün təhlili şərtdir

Kriminal hadisələrdə sübutların toplanması və təhlili analitik düşüncənin praktik tətbiqidir. Polis əməkdaşları sübutları yalnız toplamaqla kifayətlənməməli, onların əlaqəsini və ardıcıllığını da müəyyən etməlidirlər. Məsələn, hadisə yerində ayaq izləri və barmaq izləri aşkar olunubsa, onların istiqaməti, zaman göstəriciləri və hadisə ilə bağlılığı ayrıca qiymətləndirilməlidir. Məlumatların düzgün əlaqələndirilməsi həm şübhəli şəxsin müəyyən edilməsini sürətləndirir, həm də hüquqi prosedurun düzgün aparılmasına xidmət edir.

### Düşüncə necə inkişaf etdirilməli?

Analitik bacarıqlar yalnız təcrübə ilə deyil, məqsədli məşqlərlə də inkişaf etdirilə bilər. Polis əməkdaşları, hadisələri mərhələli şəkildə analiz etməklə, mümkün ssenariləri müqayisə etməklə, şahid ifadələrində uyğunsuzluqları aşkar etməklə, sübutların toplanması və qorunmasında prioritetləri müəyyən etməklə, riskləri hesablayaraq optimal variant seçməklə öz analitik bacarıqlarını gücləndirə bilərlər. Başqa sözlə, bir sübut digər sübutla möhkəmləndirilməlidir. Bu yanaşma stressli şəraitdə soyuqqanlı qərar vermə vərdişini formalaşdırır.

### Komanda işində analitik düşüncə

Analitik düşüncə komanda fəaliyyətində də mühüm rol oynayır. Əməliyyat zamanı müxtəlif əməkdaşlar fərqli məlumatlar toplayır. Analitik yanaşma bu məlumatların sistemli paylaşılmasına, düzgün rol bölgüsünə və koordinasiyaya imkan yaradır. Bu isə səhv riskini azaldır və əməliyyatın effektivliyini artırır.

### Texnologiya ilə birgə təhlil...

Müasir texnologiyalar - kamera görüntüləri, dron sistemləri, 3D skan cihazları, elektron məlumat bazaları analitik təhlili gücləndirən mühüm vasitələrdir.

Bu texnologiyalar sübutların daha dəqiq araşdırılmasına, məlumatın sürətli emalına və qərarvermə prosesinin təkmilləşdirilməsinə kömək edir.

Analitik düşüncə polis fəaliyyətinin əsas sütunlarından biridir. O, hadisələri obyektiv qiymətləndirməyə, riskləri düzgün hesablamağa, sübutları ardıcıl təhlil etməyə və əsaslandırılmış qərarlar qəbul etməyə imkan verir. Bu bacarıq həm fərdi peşəkarlığın, həm də komanda uğurunun əsas amilidir. Analitik düşüncə yalnız bir qabiliyyət deyil, polis peşəsinin intellektual nüvəsidir.

***A.Tahirova***

# DİN müsabiqə elan edir

## Xidmətə qəbul üçün qadın namizədlər müraciət edə bilərlər

Daxili İşlər Nazirliyi Bakı şəhərində yerləşən müvafiq qurumlarında, eləcə də respublikanın şəhər və rayon polis orqanlarında vakant olan yetkinlik yaşına çatmayanların işləri üzrə orta rəis heyəti üzrə inspektor vəzifələrinə qadın namizədlərin xidmətə qəbulunu elan edir.

Müsabiqədə Azərbaycan Respublikasının dövlət ali təhsil müəssisələrini hüquqşünaslıq və pedaqoji ixtisaslar üzrə bitirən, 20–30 yaş aralığında, boyu 160 sm-dən yuxarı olan, özü və yaxın qohumlarının məhkumluğu olmayan, qadın cinsli Azərbaycan Respublikası vətəndaşları iştirak edə bilərlər.

Namizədlərin sağlamlıq vəziyyəti, fiziki hazırlığı və bilik səviyyəsi müəyyən olunmuş normativlər üzrə yoxlanılacaqdır.

Müsabiqə zamanı kompüterdə işləmək bacarığı olan, məsuliyyətli və diqqətli, ən azı bir xarici dili sərbəst bilən, həmçinin 3 illik pedaqoji təcrübəsi olan namizədlərə üstünlük veriləcəkdir.

İştirak etmək istəyən şəxslər 2026-cı il fevralın 10-dan martın 10-dək Daxili İşlər Nazirliyinin rəsmi internet saytında — www.mia.gov.az ünvanında yerləşdirilmiş elektron ərizə formasını və qısa anket məlumatlarını şəxsən dolduraraq bki@mia.gov.az elektron poçt ünvanına göndərməlidirlər.

Əlavə məlumat almaq üçün əlaqə telefonları: (012) 590-80-66, (012) 590-98-37, (012) 590-93-64, (012) 590-97-52.

# Qanunun tələbi:

## Mülki silah sahibinin hansı vəzifələri var?

Xidməti və mülki silah haqqında Azərbaycan Respublikasının Qanununa əsasən mülki silah özünümüdafiə, ov və idmanla məşğul olmaq üçün nəzərdə tutulmuş silah hesab olunur. Qanunun 21-ci maddəsinə uyğun olaraq mülki silah sahibi bir sıra vəzifələri yerinə yetirməlidir.

Silah sahibi qanunun tələblərinə uyğun şəkildə əldə etdiyi silahı mütləq qaydada qeydiyyatdan keçirməlidir. O, həmçinin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydalara əsasən silahdan yalnız təyinatı üzrə istifadə etməli və onun daşınması zamanı müəyyən edilmiş tələblərə əməl etməlidir.

Mülki silahın və döyüş sursatlarının saxlanılması zamanı təhlükəsizlik tədbirləri təmin olunmalı, onların başqa şəxslərin əlinə keçməsi və ya istifadəsi mümkün olmayan şərait yaradılmalıdır. Səlahiyyət verilmiş əməkdaşları silah saxlanılan yerə buraxmalı, silahdan istifadə edilməsi hüququnu təsdiq edən şəhadətnaməni təqdim etməlidir.

# Vaxtında müdaxilə həyat xilas edir

## Polisin bilməli olduğu ilkin tibbi yardım qaydaları



Bu yaxınlarda Biləsuvarda baş verən hadisə bir daha göstərdi ki, həyat bəzən saniyələr içində dəyişə və insan taleyi bir anlıq müdaxilədən asılı qala bilər. Epilepsiya tutması keçirən bir şəxs avtomobil yolunu keçərkən qəfil halı pisləşərək yıxılmış və hərəkətsiz vəziyyətdə qalmışdı. Bu təhlükəli anlarda yoldan keçən bir vətəndaş vəziyyəti dərhal dəyərləndirərək tərəddüd etmədən müdaxilə etmiş, şəxsin təhlükəsizliyini təmin etmək məqsədilə onu yolun kənarına çəkmişdi. Hadisə yerinə yaxınlaşan polis əməkdaşının operativ şəkildə ilkin tibbi yardım göstərməsi isə vəziyyətin daha da ağırlaşmasının qarşısını aldı və epilepsiya tutması keçirən şəxsin həyatına yaranan real təhlükəni aradan qaldırdı. Bu nümunə bir daha sübut etdi ki, polis əməkdaşlarının ilkin tibbi biliklərə sahib olması insanların həyatını xilas etmək baxımından böyük əhəmiyyət daşıyır. Polislər özləri də xidmət gərəyi təhlükəli hallarla üzləşir, cinayətkarın zərərsizləşdirilməsi zamanı xəsarət ala və ilkin tibbi yardım almaq ehtiyacı ilə üzləşə bilərlər.

Deməli, tibbi biliyə sahib olmaq həm də bu çətin peşənin tələbidir. Gözlənilməz qəza, qəfil xəstəlik və ya fövqəladə vəziyyət zamanı ilk dəqiqələr həlledici rol oynayır. Həmin an doğru və vaxtında göstərilən yardım bəzən bir insanın həyatını xilas edə, onun gələcəyini dəyişə bilər. Məhz buna görə də ilkin tibbi yardımla bağlı ən vacib biliklərə sahib olmaq həm adi vətəndaş üçün, həm də və daha çox polis əməkdaşı üçün vacibdir.

İlkin tibbi yardım dedikdə həkim gələnədək zərərçəkmiş şəxsin həyatının qorunmasına yönəlmiş sadə, lakin həyati əhəmiyyət daşıyan tədbirlər nəzərdə tutulur. Bu yardımın məqsədi vəziyyəti ağırlaşdırmamaq, təhlükəni aradan qaldırmaq və insanın yaşamaq şansını artırmaqdır.

İlk növbədə yadda saxlamaq lazımdır ki, hər hansı hadisə zamanı yerində təşvişə düşmədən vəziyyət düzgün qiymətləndirilməlidir. Zərərçəkmişə yaxınlaşmazdan əvvəl ətraf mühitin təhlükəsizliyinə diqqət yetirilməli, yol-nəqliyyat hadisəsi, elektrik xətləri, yanğın və digər risklər varsa, aradan qaldırılmalı və ya minimuma endirilməlidir. Polis əməkdaşları üçün bu xüsusilə vacibdir, çünki onlar həm öz təhlükəsizliklərini, həm də ətrafdakı insanların təhlükəsizliyini təmin etməlidirlər.

Şəxsin huşu yoxlanmalı, onun danışıb-danışmadığına, nəfəs alıb-almadığına diqqət yetirilməlidir. Əgər zərərçəkmiş huşsuz vəziyyətdədirsə, lakin nəfəs alırsa, onu yan üstə - "bərpa vəziyyəti"nə gətirmək tövsiyə olunur. Bu, qusma və ya dilin geri düşməsi nəticəsində boğulma riskinin qarşısını alır.

Epilepsiya tutması zamanı isə ən vacib məqam düzgün davranmaqdır. Tutma keçirən şəxsi zorla saxlamaq, ağzına hər hansı əşya qoymaq qətiyyən olmaz. Onun başının altına yumşaq bir əşya qoymaq, ətrafındakı sərt və təhlükəli predmetləri kənarlaşdırmaq və tutma bitənədək sakit şəkildə nəzarət etmək lazımdır. Tutma başa çatdıqdan sonra şəxs müvəqqəti çaşqın vəziyyətdə ola bilər, ona sakitləşdirici münasibət göstərilməli və ehtiyac yaranarsa, təcili tibbi yardım çağırılmalıdır.

Qanaxma hallarında vaxtında müdaxilə həyat qurtara bilər. Güclü qanaxma zamanı təmiz parça və ya sarğı ilə yara üzərinə təzyiq göstərilməli, mümkün olduqda zədələnmiş nahiyə ürək səviyyəsindən yuxarı qaldırılmalıdır. Əgər qanaxma dayanmazsa, dərhal peşəkar tibbi yardım çağırılmalıdır.

Sınıq və çıxıq şübhəsi olduqda zədələnmiş nahiyə hərəkətsiz vəziyyətdə saxlanmalı, şəxsin yerindən lazımsız tərpədilməsindən çəkinilməlidir. Xüsusilə onurğa zədəsi ehtimalı varsa, zərərçəkmiş yalnız zəruri hallarda və çox ehtiyatla hərəkət etdirilməlidir. Nəfəsin dayanması və ya ürək fəaliyyətinin pozulması hallarında isə süni tənəffüs və ürək masajı kimi ilkin reanimasiya tədbirləri həlledici rol oynayır. Bu bacarıqların öyrənilməsi polis əməkdaşları üçün peşə hazırlığının ayrılmaz hissəsi olmalıdır.

Nəticə olaraq qeyd etmək lazımdır ki, ilkin tibbi yardım bilikləri sadəcə əlavə məlumat deyil, real həyatda insan taleyini dəyişən mühüm bacarıqdır. Polis əməkdaşları üçün bu biliklər həm xidməti vəzifənin icrası zamanı, həm də gündəlik həyatda qarşılaşdıqları gözlənilməz vəziyyətlərdə vacibdir. Hər bir düzgün və vaxtında göstərilən ilkin tibbi yardım bir həyatın xilas olunması deməkdir. Cəmiyyətin təhlükəsizliyi isə məhz belə məsuliyyətli, hazırlıqlı və peşəkar yanaşmadan başlayır.

***A.Tahirova***

# Oxumaq vərdişi və nitq bacarığı

## Faydalı kitab tövsiyələri

Oxumaq vərdişi həm zehni, həm emosional, həm də sosial inkişaf üçün ən güclü alətlərdən biridir. Oxumaq insanın dünyagörüşünü genişləndirir, nitqini və düşünmə qabiliyyətini formalaşdırır, beynin aktivliyini qoruyur, ən əsası analitik və tənqidi düşüncəni gücləndirir. Xüsusən də cəmiyyətlə daim ünsiyyətdə olan polislər üçün düzgün və səlis danışıq peşəkar fəaliyyətin ayrılmaz hissəsidir.



Bu baxımdan kitab seçimi xüsusi əhəmiyyət daşıyır. Klassik ədəbiyyatdan başlamaq tövsiyə olunur. Nizami Gəncəvinin əsərləri dilin zənginliyini və fikir ifadəsinin dərinliyini öyrədir. Mirzə Fətəli Axundzadənin dram əsərləri aydın və məntiqli nitqin formalaşmasına kömək edir. Cəlil Məmmədquluzadənin "Ölülər" əsəri cəmiyyətin problemlərini satirik və təsirli dillə izah etməyi öyrədir.

Dünya ədəbiyyatından Lev Tolstoyun "İnsan nə ilə yaşayır?" hekayələri humanizm və mənəvi dəyərləri aşılayır. Corc Oruellin "Heyvanıstan" əsəri tənqidi düşüncəni gücləndirir. Nitqin inkişafı üçün natiqlik və psixologiya kitabları da faydalıdır. Deyl Karneqinin "Dost qazanmaq və insanlara təsir etmək" kitabı ünsiyyət bacarıqlarını artırır.

Polislər üçün hüquqi və publisistik əsərlər terminologiyanın düzgün mənimsənilməsinə kömək edir. Müntəzəm mütaliə söz ehtiyatını zənginləşdirir. Kitab oxuyan polis daha inamlı danışır və cəmiyyət qarşısında daha nüfuzlu görünür. Oxumaq peşəkarlığa aparan ən etibarlı yoldur.

POLİS
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır. Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: ANAR QAFAROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 11454
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az
Qiyməti 40 qəpik